# Sülhməramlıların və BQXK-nin növbəti avtomobil karvanının aksiya ərazisindən keçidi təmin edilib

Azərbaycanlı ekofəalların toplaşdığı Laçın-Xankəndi yolu humanitar məqsədlər üçün açıqdır, sərbəst hərəkətə heç bir maneə yoxdur. Laçın-Xankəndi yolunda hər iki istiqamətə Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus avtomobillər maneəsiz hərəkət edirlər. Sülhməramlılara məxsus 18 təminat avtomobili Laçından Xankəndi istiqamətinə maneəsiz keçib.

❖ ❖ ❖

Sülhməramlılara məxsus birində 9, digərində isə 10 avtomobil olan iki təminat-təchizat karvanının Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Ümumilikdə gün ərzində sülhməramlıların 22 avtomobilinin maneəsiz keçməsinə şərait yaradılıb.





❖ ❖ ❖

Sülhməramlılara məxsus daha 5 avtomobilin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

❖ ❖ ❖

Sülhməramlılara məxsus iki təminat avtomobilinin Xankəndi istiqamətinə doğru sərbəst hərəkətinə şərait yaradılıb.

Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı Ermənistan mətbuatında yayılan xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

***AZƏRTAC***

Azərbaycan.- 2023.- 26 yanvar.- S.5.